*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 52-56*

https://doi.org/10.62837/2026.3.52

**ŞÜKUFƏ M.AĞAKIŞIYEVA**
**Bakı Slavyan Universiteti**
**baş müəllim, filologiya üzrə fəlsəfə doktoru**

# DİL NORMASI: SABİTLİK VƏ DƏYİŞKƏNLİK

**Xülasə**

"Dil norması: sabitlik və dəyişkənlik" problemi mövzusuna həsr edilmiş məqalədə ədəbi dil normasının nəzəri mahiyyəti. funksiyaları və inkişaf qanunauyğunluqları araşdırılır. Məqalədə norma anlayışının dilin sistemliliyini, vahidliliyini və kommunikativ effektivliyini təmin edən əsas mexanizm olduğu göstərilir. Qeyd olunur ki, norma müəyyən dövr üçün qəbul edilmiş qaydalar toplusu olsa da, o, dəyişməz xarakter daşımır və tarixi inkişaf prosesində yenilənir.

Tədqiqatda normanın sabitlik xüsusiyyəti onun kodifikasiya təhsil sistemi və rəsmi ünsiyyət vasitəsilə qorunması ilə izah edilir. Eyni zamanda, cəmiyyətin ictimai-siyasi, mədəni və texnoloji inkişafı nəticəsində normada baş verən dəyişikliklər təhlil olunur. Əlifba islahatları terminoloji yenilənmələr və qloballaşmanın təsiri dəyişkənliyin konkret təzahürləri kimi təqdim edilir.

Məqalədə sabitlik və dəyişkənlik arasında tarazlığın qorunmasının vacibliyi vurğulanır və göstərilir ki, bu iki xüsusiyyət bir birini inkar etmir, əksinə, dilin canlılığını və funksionallığını təmin edən qarşılıqlı tamamlayıcı prinsiplər kimi çıxış edir.

**Açar sözlər:** *Dilçilik. cəmiyyət, dil, norma, sabitlik,dəyişkənlik*

## ЯЗЫКОВАЯ НОРМА: СТАБИЛЬНОСТЬ И ИЗМЕНЧИВОСТЬ

**Резюме**

Статья, посвященная теме языковой нормы: проблема стабильности и изменчивости, исследует теоретическую сущность литературной языковой нормы. Ее функции и закономерности развития. В статье показано, что понятие нормы является основным механизмом, обеспечивающим систематичность, единообразие и коммуникативную эффективность языка. Отмечается, что, хотя норма представляет собой набор правил, принятых на определенный период, она не является неизменной и обновляется в процессе исторического развития.

Исследование объясняет стабильность нормы ее сохранением посредством кодификации, системы образования и официальной коммуникации. Одновременно анализируются изменения, происходящие в норме в результате социально-политического, культурного и технологического развития общества. В качестве специфических проявлений изменчивости представлены алфавитные реформы, терминологические нововведения и влияние глобализации.

В статье подчеркивается важность поддержания баланса между стабильностью и изменчивостью и показано, что эти две особенности не отрицают друг друга, а, наоборот, действуют как взаимодополняющие принципы, обеспечивающие жизнеспособность и функциональность языка.

**Ключевые слова:** *Лингвистика,общество, язык,норма ,стабилность изменчивость*

**Shukufe Agakishiyeva**

**LANGUAGE NORM: STABILITY AND VARIABILITY**

**Abstract**

This article, devoted to the topic of linguistic norms: the problem of stability and variability, explores the theoretical essence of the literary linguistic norm, its functions, and the patterns of its development. The article demonstrates that the concept of a norm is the primary mechanism ensuring the systematicity, uniformity, and communicative effectiveness of language. It is noted that, although a norm represents a set of rules adopted for a specific period, it is not immutable and is updated throughout the process of historical development.

The study explains the stability of a norm by its preservation through codification, the educational system, and official communication. It also analyzes the changes occurring in the norm as a result of the socio-political, cultural, and technological development of society. Alphabetical reforms, terminological innovations, and the influence of globalization are presented as specific manifestations of variability.

The article emphasizes the importance of maintaining a balance between stability and variability, demonstrating that these two characteristics do not negate each other but, on the contrary, act as complementary principles, ensuring the viability and functionality of language.

**Key words:** *Linguistics, society, language ,norm stability variability*

Dilçilik anlayışı kimi "dil norması" dedikdə, cəmiyyət üzvləri tərəfindən qəbul edilmiş, məcburi sayılan hər hansı bir qayda, üsul, sərhəd və müəyyən edilmiş meyarlar nəzərdə tutulur. Bu anlamın yaranması və təkmilləşdirilməsi hər zaman cəmiyyət tərəfindən müqavimətsiz qarşılanır və qəbul edilir (əgər bu dəyişikliklər ümumxalq və ümumbəşəri xarakter daşıyırsa). Digər tərəfdən isə tarixən qəbul edilmiş dil normaları get-gedə daha geniş mənimsənilərək, geniş istifadə diapazonuna malik olaraq adiləşir, sadələşir, necə deyərlər, məişət çərçivəsinə daxil olur.Bu baxımdan dilin leksik fonduna diqqət yetirdikdə dediklərimizin özünü doğrultduğunu görürük. Amma bu o demək deyil ki. dil normaları öz təbiətinə görə sistem xarakteri daşımır. Bu qətiyyən belə deyil. Belə ki, o dildə olan hər növ norma,norma variantları öz həmcinsi ilə sistem yaradır, ümumdil sistemindən kənara çıxmır,dil ahəngliyini pozmur.

Dilçi-alim Nadir Məmmədli qeyd edir ki, "Dil norması cümlədə sözlərdən necə istifadə etmək, onları necə birləşdirmək, qrammatik sonluqları düzgün seçmək, cüm-

lələri, mətnləri necə qurmaq, səsləri necə tələffüz etmək, vurğu,intonasiya və s. məsələləri əhatə edir və dilin bütün səviyyələrində özünü göstərir. Azərbaycan ədəbi dilinə dərindən bələd olmaq, normalarını bilmək. onlara əməl emək şifahi və yazılı nitqimizdəsəhvlərdən qaçmağa imkan verir" [5, s. 6].

Dil norması ədəbi dilin sabitliyini təmin edən,ünsiyyət prosesində vahidliyi və anlaşmanı qoruyan qaydalar sistemidir. Lakin norma yalnız sabitlik deyil, eyni zamanda dəyişkənlik xüsusiyyəti ilə də səciyyələnir. Dil ictimai hadisə kimi daim inkişaf edir,cəmiyyət dəyişdikcə dil də yenilənir. Bu baxımdan dil normasının əsas problemlərindən biri sabitliklə dəyişkənliyin arasında tarazlığın qorunmasıdır.

Akademik Nizami Cəfərov yazır: "Ədəbi dilin ən m ühüm tələblərindən biri dil vahidlərinin (sözlərin, söz birləşmələrinin və s.) istifadəsini tənzimləyən qaydalara, normalara mütləq əməl edilməsidir. Norma ədəbi dilin inkişafının müəyyən dövrü üçün dil vahidlərindən istifadənin ümumi qəbul olunmuş nümunəsidir. Bu anlayış müxtəlif variantlarda ifadə olunur: "norma", "ədəbi norma", "ədəbi dil norması", "dil norması" və s." [2, s. 6].

Dil inkişaf prosesində təkmilləşdikcə onun normaları yaranır və bu tədricən bir dil ənənəsi alır. Bu nöqteyi-nəzərdən tarix boyu dilin inkişaf mərhələlərində ən çətin məsələlərdən biri onun normamalarını, normaların sərhəd və tərkib, xüsusiyyət və anlamlarının meyarlarını və prinsiplərini müəyyən etməkdən ibarətdir.

Müasir dilçilikdə norma həm sistemlilik, həm də dinamika baxımından araşdırılır. Bir tərəfdən ədəbi dil ənənəyə əsaslanır. Digər tərəfdən isə yeni ictimai tələblərə uyğunlaşır. Biz araşdırmada dil normasının sabitlik və dəyişkənlik aspektlərini nəzəri və praktik cəhətdən təhlil etməyə çalışacağıq.

Öncə dil normasının mahiyyəti və funksiyalarına nəzər salaq. Dil norması müəyyən tarixi mərhələdə ictimaiyyət tərəfindən qəbul edilmiş və ədəbi dil üçün nümunə sayılan dil vahidlərinin məcmusudur. Norma fonetik, leksik, morfoloji, sintaktik və üslubi səviyyələrdə özünü göstərir və onun əsas funksiyaları aşağıdakılardır:

1. Kommunikativ funksiyanın təmin edilməsi – vahid dil qaydaları ünsiyyəti asanlaşdırır;
2. Sosial vahidliyin qorunması – dil milli identikliyin əsas göstricilərindən biridir;
3. Mədəni irsin ötürülməsi – norma ədəbi ənənəni qoruyur;
4. Təhsil və rəsmi ünsiyyətdə sabitliyin təmin olunması

Norma dil dil sistemliliyini qoruyaraq xaotik dəyişmələrin qarşısını alır. Əks halda, dilin müxtəlif variantları arasında anlaşılmazlıq yarana bilər.

Ədəbi dilimizin normaları haqqında N.Cəfərovun, N.Abdullayevin, N.Xudiyevin, N.Məmmədlinin və başqa dilçilərin maraqlı fikirləri vardır. Ümumiyyətlə isə, dilçilikdə dil normasını müəyyən edən ölçü vahidi mövcud deyil. Norma üçün dil hadisəsinin dil şəraitini nəzərə almaqla işlənmə dərəcəsini əsas götürənlər də var. Dil normaları müəyyənləşdirilərkən təbiilik.zərurilik. istklilik və sabitlik kimi meyarlara üstünlük verilir.Burada söhbət ədəbi dil norması və bədii ədəbiyyatın dil qarşılığından gedir.

Dilçilik elmində dəfələrlə qeyd edilirki, normanın dəqiqliyi və ümümməcburiliyi əsas şərtdir. Norma dilin daxili strukturunun zəruri və vacib elementidir. "Norma dildə bütün mövcud kateqoriyaların hamısından daha çoxaspektli bir sistemdir. Bu sistemdə həm tarixilik, həm müasirlik var. Norma həm yazılı, həm də şifahi dildə m övcuddur. Norma həmçinin, sabit qaydalara malik olan milli dilin ayrı-ayrı nitq areallarında mövcuddur. Norma həm ümumi səciyyəyə malikdir, həm də sosial xarakterlidir, xüsusi dil kollektivlərinə xidmət edir" [5, s. 7].

Dilin normasının sabitliyi ədəbi dilin mövcudluğunun əsas şərtidir. Sabitlik dedikdə müəyyən dövr üçün qəbul olunmuş qaydaların uzun müddət qorunması nəzərdə tutulur. Bu xüsusiyyət dilin davamlılığının və nəsillərarası anlaşmanı təmin edir. Sabitlik əsas etibarilə aşağıdakı mexanizmlərlə qorunur:

Kodifikasiya – lüğətlər və qrammatika kitabları vasitəsilə qaydaların təsdiqi;

Təhsil sistemi – məktəb və ali təhsil müəssisələrində norma əsas götürülür;

Rəsmi sənədləşmə və KİV – standart dil formalarının tətbiqi.

Azərbaycan dilində normanın sabitləşməsində Azərbaycan Milli Elmlər Akademiyası və onun nəzdində fəaliyyət göstərən Nəsimi adına Dilçilik İnstitutu mühüm rol oynayır. Orfoqrafiya lüğətlərinin hazırlanması və terminoloji iş normanın vahidliyini təmin edir.

Sabitlik dilin struktur bütövlüyünü qoruyur. Məsələn. rammatik kateqoriyalar və əsas sintaktik modellər uzun müddət dəyişməz qalır. Bu isə dilin sistem xarakterini möhkəmləndirir.

Dil canlı və dinamik sistemdir. Cəmiyyətin inkişafı. yeni anlayış və texnologiyaların yaranması nornmada dəyişikliklərə səbəb olur. Dəyişkənlik dilin inkişafının təbii nəticəsidir və normanın tarixi xarakterini təsdiq edir.Normanın dəyişməsi aşağıdakı amillərlə bağlıdır:

1. İctimai-siyasi faktorlar- dövlət quruluşu və ideoloji dəyişiklər
2. Mədəni və elmi tərəqqi- yeni terminlərin yaranması
3. Beynəlxalq əlaqələr və qloballaşma – alınma sözlərin atrması
4. Texnologiyanın təsiri – internet və sosial şəbəkələrin diləgətirdiyi yeniliklər.

Azərbaycan ədəbi dilinin tarixində əlifba dəyişiklikləri normanın dəyişkənliyinə bariz nümunədir. XX əsrdə ərəb qrafikasından latın qrafikasına keçid, sonra kiril əlifbasının tətbiqi və nəhayət yenidən latın qrafikasının qəbul olunması dil normasının tarixi şərtlərlə dəyişdiyini göstərir. Bundan əlavə. Leksik tərkibdə baş verən yeniləmələr normanın dinamikliyini nümayiş etdirir. Məsələn texnologiya iləbağlı terminlər əvvəl mövcud olmayan anlayışları ifadə edir və zamanla norma səviyyəsinə yüksəlir.

Dil normasında əsas problem sabitliklə dəyişkənlik arasında optimal balansın qorunmasıdır. Həddindən artıq sabitlik dili konservativ və inkişafdan uzaq edə bilər. Əksinə, normanın həddindən artıq dəyişməsi dilin sistemliyini  poza və ünsiyyətdə cətinlik yarada bilər.Bu tarazlıq aşağıdakı prinsiplərlə təmin olunur:

Təhsil seşmə prinsipi – geniş istifadə qazanan vahidlər norma kimi qəbul edilir;

Elmı əsaslandırma – dəyişikliklər dilin daxili qanunauyğunluqlarına uyğun olmalıdır;

Mərhələli yenilənmə- norma birdən –birə deyil tədricən dəyişir.

Məsələn,danışıq dilində geniş yayılmış bəzi formalar yalnız uzunmüddətli istifadəvə kodifikasiya nəticəsində ədəbi norma statusu qazana bilir.

Qloballaşma və rəqəmsal kommunikasiya mühitində dil normasının qorunması daha mürəkkəb xarakter almışdır. Sosial şəbəkələrdə qeyri-standart yazı formalarının artması, qısaldılmış ifadələr və jarqon elementləri normanın sərhədlərini genişləndirir.

Lakin bu tendensiyalar hələ norma səviyyəsinə yüksəlmiş hesab edilmir. Ədəbi dil norması rəsmi və elmi ünsiyyətdə öz sabitliyini qorumaqdadır. Bununla belə. Gələcəkdə bəzi qeyri-standart formaların normativləşməsi ehtimalıistisna edilmir.

Dil norması sabitlik və dəyişkənlik xüsusiyyətlərinin vəhdətindən ibarət mürəkkəb sistemdir. Sabitlik dilin vahidliyini və davamlılığını təmin edir, dəyişkənlik isə onun inkişafını və yenilənməsini şərtləndirir.

Dil sistemində dinamik və çevik norma leksik normadır.Ən çox dəyişən leksik normasözlərin düzgün seçimi və işlədilməsi qaydalarını müəyyənləşdirir. Dilin lüğət tərkibi ilə bağlı olan bu norma cəmiyyətin inkişafı ilə bağlı dəyişir. Ona görə ki, leksik normanın dəyişməsi təkcə yenisözlərin yaranması ilə məhdudlaşmır.Sözlərin bəzisi köhnələrək passiv lüğət fonduna keçir, bəziləri isə yeni məna çaları qazanır. Məsələn,müasir dövrdə sovet dövrünə aid terminlərin bir qismi işlənmir.Bəzi sözlər isə digər tərəfdən məna genişlənməsi və daralması prosesinə məruz qalır.

"Milli leksika (əsl türk sözləri) ədəbi dildə alınma sözlərlə müqayisədə daha fəaldır, yüksək işlənmə tezliyinə malikdir. İkinci yeri milliləşmiş alınma leksika tutur" [ 7].

Azərbaycan ədəbi dil tarixi inkişaf prosesində bu iki meylin qarşılıqlı təsiri nəticəsində formalaşmışdır. Normanın qorunması və yenilənməsi elmi əsaslandırılmış şəkildə həyata keçirilməlidir.

Beləliklə,dil normalarında sabitlik və dəyişkənlik bir-birinə zidd anlayışlar deyil, əksinə, onlar dilin canlılığını və funksionallığını təmin edən qarşılıqlı tamamlayıcı prinsiplərdir.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı, 2013.
2. Cəfərov N. Ön söz. Azərbaycan dili və nitq mədəniyyəti II cild. Bakı, 2022.
3. Hüseynzadə Ç .M Azərbaycan dilində morfoloji norma. Bakı: Nurlan, 2004, səh.
4. Xudiyev N. Azərbaycan ədəbi dil tarixi. Seçilmiş əsərləri I cild. Bakı, 2012.
5. Məmmədli N.Azərbaycan dili və nitq mədəniyyəti. Elm və təhsil. Bakı 2022 512 s
6. Məmmədov M. Ana dili və nitq mədəniyyəti məsələləri. Bakı: Nurlan, 2004, 321 s.
7.https://kayzen.az/blog/Az%C9%99rbaycandili/24146/%C9%99d%C9%99bi-dilin-normalar%C4%B1.html

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 52-56*

**Rəyçi: f.ü.f.d,dosent, Dürdanə Fərman qızı Hümbətova**